# Azərbaycan investisiya layihələrində ekoloji standartlara üstünlük verir



**Əliabbas Salahzadə**
Milli Məclisin deputatı

Ölkəmizin əlverişli təbii-coğrafi mövqeyi, zəngin resurs potensialı dünyada güc mərkəzi hesab olunan ölkələrin, siyasi prosesləri yönləndirmək iqtidarında olan beynəlxalq təşkilatların və böyük investorların daim diqqət mərkəzində olmasını şərtləndirən başlıca amillərdən olmuşdur. Dövlət müstəqilliyinin bərpasından sonrakı ilk illərdə ölkəmizin zəngin neft və qaz ehtiyatları bu marağın başlıca obyekti kimi Azərbaycanı xarici investisiyalar üçün cəlbedici məkana çevirdi.

Ölkəmizin beynəlxalq şirkətlərlə mühüm neft hasilatı müqavilələri imzalamaqla əldə etdiyi uğurlar həm iqtisadiyyatımıza, həm də əhalinin yaşayış səviyyəsinə müsbət təsir göstərdi. Dövlət müstəqilliyinin bərpasından keçən dövr ərzində Azərbaycan beynəlxalq arenada çoxsaylı uğurlu layihələrin həyata keçirilməsində öncül rola sahib ölkələrdən biri oldu, nəqliyyat xətlərinin diversifikasiyası siyasətini uğurla həyata keçirən mühüm haba çevrildi.

Dünyada baş verən geosiyasi təbəddülatlar, xüsusən də Avropa ölkələrinin davamlı və dayanıqlı enerji ilə təmini, enerji təhlükəsizliyi problemlərinin uğurlu həlli məsələləri ölkəmizin siyasi-iqtisadi əhəmiyyətini daha da artıraraq onu alternativ enerji mənbələrinin əsas təminatçı və təchizatçısı mövqeyinə yüksəldə bildi. Bu baxımdan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin əhəmiyyəti hər ötən gün artmaqla yanaşı, daşıma və ötürmə imkanlarının artırılmasını zəruri edir. Bu kəmərlərin hər birinin inşası və ona hazırlıq zamanı ölkəmizin ciddi beynəlxalq siyasi müqavimətlərlə qarşı-qarşıya qalmasını xüsusi qeyd etmək istəyirəm. Ulu Öndər Heydər Əliyevin və dövlət başçımız, müzəffər Ali Baş Komandan İlham Əliyevin sarsılmaz iradəsi sayəsində bu layihələrin həyata keçirilməsinə nail olundu.

Uzun müddətdir davam edən Rusiya-Ukrayna müharibəsi və onun doğurduğu iqtisadi nəticələrdən qaynaqlanan yeni mənzərə və çağırışlar yürüdülən bu siyasətin doğruluğunu, qarşıya qoyulan hədəflərin və gözlənilən nəticələrin düzgün müəyyənləşdirildiyini təsdiq edir. 44 günlük Vətən müharibəsində qazandığımız tarixi zəfərdən sonra türk birliyi ideyasının və bu zəmində inteqrasiya meyillərinin artması əsasında ölkəmizin əlverişli coğrafi mövqeyindən qaynaqlanan imkanlarımız iqtisadi gücümüzün artmasında özünü bir daha göstərir.

Bu gün Avropa İttifaqı üçün prioritet enerji layihələri olan "Şahdəniz-2" və Cənub Qaz Dəhlizi Azərbaycanın uğurlu investisiya təşəbbüslərində əldə etdiyi nailiyyətlərin bariz nümunəsi və ölkəmizin siyasi nüfuzuna dəyər qatan faktorlardandır. Bu çoxsaylı neft-qaz layihələri ölkəmizin iqtisadi gücünü yüksəldərək dövlətin gəlirlərini, dövlət büdcəsinin həm mədaxil, həm də məxaric hissələrini ildən-ilə artırır.

Ölkəmizin iqtisadi gücü, çoxşaxəli resurs potensialı qeyri-neft sektorunun genişlənməsinə də geniş imkanlar yaradır. Neft gəlirlərinin düzgün və uğurlu idarəetmə modelinin tətbiqi iqtisadiyyatın digər istiqamətlərinin, xüsusən də aqrar sektorun, turizmin, eyni zamanda, elm sahəsinin inkişafında əsas iqtisadi zəmin təşkil edir.

Artıq bir çox irihəcmli infrastruktur layihələrinin icrası başa çatdırılmış, bir çoxlarının icrası isə davam etdirilir. Ölkəmizin hər ötən gün xarici investisiyalardan asılılığı azalır. Bu gün bir sıra layihələrin əsas investoru kimi çıxış edir. Azərbaycan Bakı-Tbilisi-Qars dəmir yolu, yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, öz ərazimizlə İran İslam Cümhuriyyətini birləşdirən dəmir yolu xəttinin çəkilişi kimi ciddi regional təşəbbüsləri öz maliyyə vəsaiti hesabına dəstəkləmiş və icra etmişdir. Bu gün hər bir dövlətə davamlı gəlir əldə etməkdən ötrü siyasi stabillik, təhlükəsizlik və maliyyə dayanıqlılığı tələb olunur ki, bu baxımdan dünyada örnək sayılan ölkələrdən biriyik.

2020-ci ildə möhtərəm cənab Prezidentimiz İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində yaradılmış Ələt Azad İqtisadi Zonası ölkəmizdə əlverişli investisiya mühitinin




formalaşdırılması üçün atılan səmərəli addımlardan biridir və qlobal rəqabətədavamlı iqtisadiyyatın yaradılması istiqamətində mühüm iqtisadi layihələrdəndir. 2023-cü ilin iyununda açılışı həyata keçirilmiş layihənin birinci mərhələsi 60 hektar ərazini əhatə edir və şaxələndirilmiş, ixracyönümlü iqtisadiyyatı inkişaf etdirməklə beynəlxalq iqtisadi münasibətlərdə vazkeçilməz iştirakçı olmaq məqsədi daşıyır. Bu layihənin əsas məqsədi investorları yüksək səviyyəli mühit, enerji, vergi və gömrük rüsumlarından azadolmalar, unikal qanunvericilik bazası, nəqliyyat və logistika infrastrukturu ilə təmin etməkdir. İnvestisiya cəlbediciliyini stimullaşdıran amillərdən biri  Ələt Azad İqtisadi Zonası tərəfindən layihələrin qeydiyyat prosesinin  sadə və anlaşıqlı olmasıdır. Bu gün xarici investorlar əmin ola bilirlər ki, ölkəmizdə onların hüquq və mənafeləri şəffaf qanunlarla qorunur və investisiyalarını tənzimləyən qanunlar ilkin yatırımdan sonra ən azı on il müddətində qüvvədə qalacaq. Hökumətimiz mülkiyyət hüquqlarına hörmətlə yanaşma prinsiplərinə, yerli və xarici sahibkarlar üçün bərabər imkanların, xarici investisiyaların potensial risklərdən qorunması üçün lazımi müdafiənin təmin edilməsinə görə bütün lazımi tədbirləri  görmüşdür. Bu sahədə yaranan problemləri vaxtında qiymətləndirmək üçün ayrı-ayrı qurumlarda apellyasiya şuraları yaradılıb. Parlamentdə "İnvestisiya fəaliyyəti haqqında", "Xarici investisiyaların müdafiəsi haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" mühüm qanunlar qəbul edilmişdir. Xarici investorun investisiya məbləğinin yerləşdirildiyi sənaye sahəsi milliləşdirilməyə qərar verilərsə, ədalətli təzminat ala bilməsi, alacaqları məbləğin yatırdıqları ilkin investisiyalara uyğun miqdarda olması, sərmayədara qanunsuz hərəkətlər nəticəsində dəymiş zərərə görə dövlət orqanlarını məsuliyyətə cəlb etmək hüququ,  itirilmiş mənfəətin qaytarılması,  kompensasiya almaq hüququ bu qanunlarla ətraflı təsbit  edilmişdir. Ölkəmizə sərmayə qoymuş hər hansı xarici investor lazımi vergi və rüsumları ödədikdən sonra qazanılan mənfəəti istənilən yerə keçirmək hüququna malikdir.

Möhtərəm cənab Prezident 2018-ci il yanvarın 18-də Azərbaycanda investisiyaların təşviqi və xarici investorların hüquqlarının müdafiəsi ilə bağlı sərəncam imzalayıb. Sərəncam müvafiq müddəaları ehtiva edən investisiya fəaliyyəti haqqında yeni qanunun yaradılmasını tələb etməklə, investor hüquqlarının təminatını, mübahisələrin alternativ həlli qaydalarını və dəymiş ziyanın ödənilməsini də əhatə edir.

Son dövrlərdə investorlar Azərbaycanda ekoloji standartlara əsaslanan investisiya layihələrinə böyük sərmayələr edirlər. Hər hansı bir sənaye sahəsinin təsirlərini təyin etmək, izləmək və idarə etmək üçün müəyyən edilmiş kriteriyalara əsaslanan bu standartlar ətraf mühitə ziyanın təsirləri azaltmaq, təbii ehtiyatları mühafizə etmək və insan sağlamlığını qorumaq məqsədi ilə təyin olunur. Bu standartlarda enerji sərfiyyatını azaltmaq əsas təşkil edir

və enerji istismarının ətraf mühitə təsirlərini qiymətləndirir.

Bu gün Azərbaycanda qurulmuş təkrar emal prosesi "yaşıl iqtisadiyyat"ın inkişafına, rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsinə, ekoloji vəziyyətin yaxşılaşdırılmasına xidmət edir. Bu gün elmi-texniki tərəqqi tam olaraq istehlak prosesindən sonra tullantıların yenidən istifadəyə yararlı hala gətirilməsinə imkan verir. Ekoloji standartlara nəzər yetirsək görürük ki, tullantılar idarəetmə standartlarının növlərindən biridir və təkraremal yenidən istifadəsi mümkün olan materialların dövri olaraq istehlak prosesinə daxil edilməsidir. Əsas məqsəd təbii sərvətlərin israfını azaltmaq, ekoloji çirklənmənin qarşısını almaq və əlavə xammal bazası yaratmaqdır. Eyni zamanda təkraremal ilkin istehsaldan fərqli olaraq, asan və tez başa gəlir ki, bu da böyük həcmdə enerjiyə qənaət etməyə imkan verir.

Ölkəmizdə təkrar istehsal sahəsində sahibkarlar və potensial investorlar üçün əlverişli şərait yaratmaq məqsədilə dövlət başçısının 2011-ci il dekabrın 28-də verdiyi sərəncamla Balaxanı Sənaye Parkı yaradıldı. İlkin mərhələdə 7 hektar ərazini əhatə edən sənaye parkına marağın artması nəzərə alınaraq onun sahəsi 10,15 hektara çatdırıldı.

Tullantıların idarə edilməsi sahəsində səmərəli təcrübələrdən biri də onların yandırılaraq zərərsizləşdirilməsi və bu prosesdən enerji əldə olunmasıdır. "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı"nın icrası çərçivəsində yaradılan və 2012-ci ildən fəaliyyətə başlayan Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu istehsal gücünə görə Şərqi Avropa və MDB məkanında bu tipli ən iri müəssisə hesab olunur. Zavod ətraf mühitin mühafizəsi sahəsində 4G texnologiyalarının tətbiqi ilə Avropanın yüksək standartlarına uyğun şəkildə qurulmuşdur. İllik gücü 500 min ton məişət və 10 min ton tibbi tullantı olan zavodda tullantıların yandırılması nəticəsində 231,5 milyon kvt/saat elektrik enerjisi istehsal olunur ki, bu da 100 min ev təsərrüfatını elektrik enerjisi ilə təmin etməyə imkan yaradır.

Dövlət başçımız, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsi rəşadətli Azərbaycan Ordusunun şanlı qələbəsi ilə nəticələndi və 30 ildən artıq düşmən işğalında qalan torpaqlarımız azad edildi. Artıq bu ərazilərdə genişmiqyaslı bərpa və quruculuq, iqtisadi reinteqrasiya tədbirləri aparılmaqdadır.

Bu istiqamətdə nəzərdə tutulmuş strateji addımlardan biri də bu ərazilərdə yaşıl enerji zonalarının yaradılmasıdır. Bu zona bərpa olunan enerji qaynaqlarından maksimum istifadə edilməklə təmin edilən və enerji dəyər zəncirində ekoloji təmiz və səmərəli "yaşıl" texnologiyalardan istifadə edilən ərazidir. 2021-ci il fevralın 22-də Azərbaycanın Energetika Nazirliyi ilə "bp" şirkəti arasında iri miqyasda karbonsuzlaşdırılmış, inteqrasiya edilmiş enerji və nəqliyyat sistemləri, şəhər və rayonlarımızda bərpa olunan enerji layihələri üçün tələb edilən potensialın və şəraitin qiymətləndirilməsi üzrə əməkdaşlıq etmək məqsədilə anlaşma memorandumu imzalanmışdır. Sənəd Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, rəqabətli enerji bazarının yaradılması, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi prioritet tədbirlərin həyata keçirilməsi kontekstində imzalanıb. Memorandum çərçivəsində təmiz enerji layihələrinin həyata keçirilməsi, az karbonlu nəqliyyat, tullantıların idarə olunması, təmiz sənaye, təbii inteqrasiyalı tərəfdaşlıqlar, həmçinin karbonsuzlaşdırılmış enerji və nəqliyyat sistemlərinin hazırlanması sahəsində əməkdaşlıq imkanlarının araşdırılması nəzərdə tutulur.

2021-ci il iyunun 3-də Cəbrayıl və Zəngilan rayonları ərazisində 240 meqavat gücündə Günəş Elektrik

Hövsan Aerasiya Stansiyası





Bərk məişət tullantılarının yandırılması zavodu

Stansiyasının tikintisi üzrə "bp" şirkəti ilə icra müqaviləsi imzalanmışdır. Sənəd əsasında şirkət tikilməsi planlaşdırılan GES layihəsi ətrafında müvafiq iqtisadi və texniki təhlillər aparacaq, yekun qərar qəbul ediləcəkdir. Bu qeyd edilənlər Azərbaycanda gələcək iqtisadi inkişafın ekoloji təmiz texnologiyaların tətbiqi ilə sıx bağlı olacağını deməyə əsas verir. Bu isə onu deməyə əsas verir ki, ölkəmizdə rəqabətədavamlılıq yaradan investisiya layihələrinə yatırım etmək istəyən investorlar üçün mühüm əhəmiyyətli ekosistem formalaşdırılır.

Sevindirici haldır ki, ölkəmizdə ekoloji standartlar ümumilikdə milli səviyyədə təyin olunur və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənir. Azərbaycanda milli prioritetlərə uyğun şəkildə ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətlə bərpası və artırılması, su ehtiyatlarından, dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin ediləcəkdir. Əgər investisiya layihələrində ekoloji standartlar prioritet istiqamətə çevrilərsə, burada artıq davamlı inkişaf formalaşacaq. Əsas məqsədi gəlir əldə etmək olan investor təbii resurslardan düzgün və səmərəli istifadə edərək həm gəlir əldə edəcək, həm də gələcək nəsillərə sağlam bir ekosistem miras qoyacaq.

Bu gün Azərbaycandakı mövcud ekosistem artıq investorların marağını cəlb edir. Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin ali məqsədi  də ölkə iqtisadiyyatının, xüsusilə qeyri-neft sektorunun dinamik inkişafını, əhalinin sosial tələbatlarını, ölkənin iqtisadi təhlükəsizliyini, ətraf mühitin mühafizəsinə yönələn dövlət əhəmiyyətli investisiya layihələrinin sistemli və səmərəli şəkildə həyata keçirilməsini təmin etməkdən ibarətdir. Onun rəhbərliyi ilə sosial-iqtisadi sahələrdə müəyyən olunmuş düzgün və uğurlu siyasətin indiyə qədər ölkəmizə böyük uğurlar gətirdiyi mübahisəsiz reallıqdır. Ölkədə inflyasiyanın və iqtisadi risk faktorlarının olmaması ekoloji yönümlü investisiya yatırmaqda maraqlı olan investorlar üçün cəzbedici mühit formalaşdırıb. Dövlət başçısının qayğısı və diqqəti sayəsində Azərbaycanda ekologiya sahəsində bütün məsələlər Avropa standartlarına uyğunlaşdırılır, yüksək standartlara keçid sürətlənir, ekoloji standartlara cavab verməyən avadanlıqların idxalının dayandırılması, layihələrin icrasında ekoloji tələblərə cavab verən yeni texnologiyaların tətbiqi istiqamətində görülən işlər öz töhfəsini verir.

Ölkəmizin ekoloji  gündəliyə sadiq qalmasının növbəti təzahürü COP29-un burada keçirilməsi oldu. Bu tədbirə ölkəmizin ev sahibliyi etməsi də bir daha beynəlxalq sferada Azərbaycana olan dərin hörmət və etimadın bariz təcəssümüdür. Bu tədbir yeni və səmərəli təbii enerji mənbələrinə yönləndirilən investisiyaları təşviq etmək və texnologiya transferini dəstəkləmək üçün əlverişli platforma təşkil edə, Azərbaycanın sürətli və səmərəli enerji istifadəsi üçün yeni imkanlar yarada bilər. Əminik ki, ölkəmiz bu maraqlardan çıxış edərək ərazilərimizdə, habelə dünyada baş verə biləcək qlobal problemlərin qarşısını almaq üçün bütün imkanlarını səfərbər edəcəkdir.